## Kazus

## FAKTLAR

Birinci və ikinci ərizəçilər, müvafiq olaraq, 1950-ci və 1953-cü ildə doğulublar və hazırda, müvafiq olaraq, Moskvada (Rusiya Federasiyası) və Kutaisidə (Gürcüstan) yaşayırlar. Onlar ər-arvaddırlar.

Birinci ərizəçi 1993-cü ildən 1995-ci ilədək Gürcüstanın ikinci böyük şəhəri olan Kutaisinin mer müavini və 1995-ci ildən 2000-ci ilədək ölkədəki ən mühüm dövlət şirkətlərindən biri olan Kutaisi avtomobil zavodunu ("zavod") işlədən şirkətin baş direktoru olmuşdu. 29 dekabr 2000-ci ildə o, səhmdarların ümumi yığıncağında zavodun nəzarət komitəsinin sədri seçildi.

Birinci ərizəçi zavodda dövlətdən (səhmlərin 78,61%-i dövlətin idi) sonra əsas səhmdar idi 1998-ci və 2002-ci illərdə həyata keçirilmiş alışlar vasitəsilə 12,95% səhmə sahib idi. İkinci ərizəçi 2002-ci ildə alınmış 2,6% səhmə sahib idi, beləliklə, cütlük ümumilikdə səhmlərin 15,55%-inə sahib idi.

2002-ci ilin dekabrında birinci ərizəçini oğurladılar. Onu oğurlayanlar tərəfindən qəddar rəftara məruz qaldıqdan sonra o, ailəsinin ödədiyi böyük girov pulu müqabilində azad edildi.

### B. Birinci ərizəçiyə qarşı cinayət prosesi

12 mart 2004-cü ildə birinci ərizəçi zavodun səhm kapitalını qanunsuz olaraq azaltmaqda təqsirləndirildi, o həmin kapitala görə, birincisi, baş direktor kimi və ikincisi, nəzarət komitəsinin sədri kimi məsuliyyət daşıyırdı. Onun barəsində saxta yolla satışların, pul köçürmələrinin və vəsaitlərin silinməsinin həyata keçirilməsi, şirkətin maraqlarını nəzərə almadan gəlirlərin xərclənməsi (Cinayət Məcəlləsinin 182-ci maddəsi – "digər şəxslərin əmlakını qanunsuz yolla mənimsəmə və talan etmə") ittihamları irəli sürüldü.

15 mart 2004-cü ildə polislər və Kutaisi prokuroru birinci ərizəçini həbs etmək üçün onun iş yerinə gəldilər. Həbs jurnalistlər tərəfindən lentə alındı və elə həmin axşam yerli özəl televiziyada yayımlandı. Yayımlanan veriliş prokurorla müsahibədən ibarət idi və onun ardınca birinci ərizəçini həbsini nümayiş etdirən kadrlar gəlir, qolları polislər tərəfindən tutulmaqla və jurnalistlər tərəfindən əhatə olunmaqla polislərin müşayiəti ilə pilləkənlərdən düşürülməsi göstərilirdi.

***Prokuror bu məsələ ilə bağlı aşağıdakı iki şərhini bildirdi: birinci ərizəçinin ofisində aparılmış axtarış zamanı müsadirə olunan sənədlər "aparılmaqda olan cinayət istintaqı üçün əhəmiyyət daşıyır və qiymətləndirilməli və təhlil olunmalı idi"; birinci ərizəçinin üzləşdiyi ittihamlar on iki il müddətinə azadlıqdan məhrumetməni nəzərdə tutur.***

***Prokurorun müsahibəsinin ardınca regionun qubernatorunun müsahibəsi verildi. Qubernator birinci ərizəçinin və ya onun barəsindəki cinayət prosesinin adını çəkməyərək digər məsələlərlə yanaşı elan etdi ki, "[siyasi böhran ucbatından] çətin vaxtlarını yaşayan dövlət seçdiyi yoldan dönməyəcək [...] və məhz pensiyaların və maaşların vaxtında verilə bilməməsinə səbəb olan dövlət pullarını mənimsəyənləri aşkara çıxaracaq".***

İstintaq yekunlaşdıqdan və birinci ərizəçiyə qarşı sübutlar 6 sentyabr 2004-cü ilədəkişin materiallarına əlavə edildikdən sonra birinci ərizəçini külli miqdarda dövlət vəsaitlərini mənimsəməkdə təqsirləndirən ittiham aktı prokuror tərəfindən təqdimedilib. İttiham aktı ilə və

toplanmış sübutlarla lazımi qaydada tanış olduqdan sonra iki vəkili ilə təmsil olunan birinci ərizəçi dövlət orqanları ilə əməkdaşlıq etməyə hazır olduğunu yenidən təsdiq edib və hərəkətlərinin vurduğu ziyanın kompensasiyası qismində zavoddakı səhmlərini elə həmin gün, 6 sentyabr 2004-cü ildə dövlətə verib.

9 sentyabr 2004-cü ildə birinci ərizəçi prokurora başqa bir yazılı ifadə verib. O, təqsirin etiraf edilməsi müqabilində cəza ilə bağlı sövdələşməyə nail olmaq və 35.000 GEL cərimə ödəmək istəyini ifadə edib. Həmin ərizədə o aydın şəkildə təsdiq edib ki, təqsirin etiraf edilməsi müqabilində sövdələşmə konsepsiyasını tam dərkedir. Elə həmin gün prokuror həbsxanada birinci ərizəçiyə baş çəkib və orada onun iki vəkilinin iştirakı ilə sazişin yazılı protokolu tərtib edilib və bütün maraqlı şəxslər tərəfindən imzalanıb. Daha sonra protokol məhkəmə tərəfindən lazımi qaydada nəzərdən keçirilib.

**Sual:** Birinci ərizəçinin təqsirsizlik prezumpsiyası hüququ pozulubmu?

**Tərəflərin arqumentləri:**

**Hökumət:**
**Ərizəçi:**
**Məhkəmənin qiymətləndirməsi:**

**Cavab:**
**NATSVLİŞVİLİ (*NATSVLISHVILI)* VƏ TOQONİDZE (*TOGONIDZE)***
**GÜRCÜSTANA QARŞI məhkəmə qərarı** (08.09.2014)

## A. Tərəflərin arqumentləri

Hökumət bildirdiki, region qubernatorunun öz sözlərini diqqətlə işlətdiyi müsahibəsi birinci ərizəçinin təqsirkar olduğu barədə açıqlamaya bərabər deyildi.Qubernator heç bir məqamda birinci ərizəçiyə qarşı cinayət işinin adını çəkməmiş, sadəcə olaraq bütövlükdə korrupsiyaya münasibətdə dövlətin mövqeyini ifadə etmişdi. Birinci ərizəçinin təqsirsizlik prezumpsiyasını pozmaq bir kənara qalsın, qubernator hətta birinci ərizəçinin adını belə çəkməmişdi. Birinci ərizəçinin həbsinin media tərəfindən işıqlandırılması faktına gəlincə, Hökumət iddia etdi ki, ərizəçilər jurnalistlərin oraya dövlət orqanlarının dəvəti ilə gəldiklərini güman etməyə əsas verən hər hansı sübut təqdim etməyiblər.

Birinci ərizəçi bunlarla razılaşmadı. O bildirdi ki, jurnalistlərin kameraları qarşısında həbs edilməsi (iddialara görə, onlar prokurorun dəvəti ilə orada idilər) və qubernatorun müsahibəsi ictimaiyyətdə onun təqsirkar olması təəssüratını yaratmaq məqsədini daşıyırdı. Birinci ərizəçi iddia etdi ki, prokuror və Hökumət medianı ona qarşı kampaniyaya təhrik etmişdilər ki, bu da onun təqsirsizlik prezumpsiyası hüququna və sonrakı məhkəmə araşdırmasına mənfi təsir göstərmişdi.

## B. Məhkəmənin qiymətləndirməsi

Məhkəmə bir daha xatırladırki, Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndində təsbit edilmiş təqsirsizlik prezumpsiyası cinayət işi üzrə məhkəmə araşdırmasında 6-cı maddənin 1-ci

bəndinin tələb etdiyi elementlərdən biridir.Həmin prezumpsiya o vaxt pozulur ki, cinayət əməlində ittiham olunan şəxsin təqsirli olması qanuna müvafiq olaraq sübut edilməzdən əvvəl həmin şəxslə bağlı dövlətin vəzifəli şəxsi tərəfindən verilən bəyanatda onun təqsirli olduğu fikri əks olunur. Hətta hər hansı formal qərar olmasa belə, bu bəyanat təqsirləndirilən şəxsin vəzifəli şəxs tərəfindən təqsirkar hesab edildiyini əsaslı olaraq düşünmək üçün kifayət edir (bax (müvafiq dəyişikliklərlə): *Allene de Ribemon Ftransaya qarşı*, 10 fevral 1995-ci il, A seriyaları, 35-ci bənd № 308; və *Minelli İsveçrəyə qarşı,* 25 mart 1983-cü il, 37-ci bənd, A seriyaları, № 62). Məhkəmə şəxsin məhkəmə araşdırmasının keçirilməsindən və cinayət törətməyə görə təqsirkar sayılmasından əvvəl dövlətin vəzifəli şəxslərinin öz bəyanatlarında sözləri düzgün seçmələrinin vacibliyinə diqqət yetirir (bax: *Daktaras Litvaya qarşı*, ərizə № 42095/98, 41-ci bənd, AİHM 2000-X). Təqsirsizlik prezumpsiyası prinsipi təkcə hakim və ya məhkəmə tərəfindən deyil, digər dövlət orqanlarının nümayəndələri, o cümlədən prokurorlar tərəfindən də pozula bilər (bax: *Kuzmin Rusiyaya qarşı*, ərizə № 58939/00, 51-63-cü bəndlər, 18 mart 2010-cu il;*Daktarasın işi* üzrə yuxarıda istinad edilən qərar, 42-ci bənd; və *Konstas Yunanıstana qarşı,* ərizə № 53466/07, 32-ci bənd, 24 may 2011-ci il). Dövlətin vəzifəli şəxsinin bəyanatının təqsirsizlik prezumpsiyası prinsipini pozub-pozmaması sözügedən bəyanatın verildiyi konkret şəraitin kontekstində müəyyən edilməlidir (*Daktarasın işi* üzrə yuxarıda istinad edilən qərar, 43-cü bənd).
Region qubernatorunun müsahibəsinə gəlincə, Məhkəmə bu fakta önəm verir ki, həmin vəzifəli şəxs nə şəxsən birinci ərizəçi barəsində, nə də ona qarşı başlanmış cinayət prosesi haqqında hər hansı konkret söz deməyib. Sadəcə olaraq qubernator ölkədə korrupsiyaya uğramış dövlət məmurlarına qarşı mübarizə ilə bağlı dövlətin siyasəti barəsində ümumi açıqlama verib. Həmin müsahibəyə əsasən mülahizə yürüdərək, Məhkəmə bu nəticəyə gələ bilməz ki, qubernator sözügedən şərhlərində birbaşa və ya dolayı yolla birinci ərizəçinin hər hansı formada kimliyinin açıqlanması məqsədini güdüb (məsələn, əks qərar üçün bax: *Konstasın işi* üzrə yuxarıda istinad edilən qərar, 39-40-cı bəndlər).
Məhkəmə həmçinin birinci ərizəçinin prokuror və qubernator tərəfindən ona qarşı aparıldığını iddia etdiyi media kampaniyası ilə bağlı arqumentinə diqqət yetirir. Həqiqətən müəyyən situasiyalarda qəzəbli media kampaniyası məhkəmə araşdırmasının ədalətliliyinə mənfi təsir göstərə və dövlətin məsuliyyətinə səbəb ola bilər. Bu hal 6-cı maddənin 1-ci bəndində nəzərdə tutulmuş məhkəmənin qərəzsizliyinə, habelə 6-cı maddəsinin 2-ci bəndində təsbit edilmiş təqsirsizlik prezumpsiyasına münasibətdə baş verə bilər (bax:*Şuvalov Estoniyaya qarşı*, ərizələr № 39820/08 və 14942/09, 82-ci bənd, 29 may 2012-ci il; *Ninn-Hansen Danimarkaya qarşı* (qərardad), ərizə № 28972/95, AİHM 1999-V; və*Angelov Bolqarıstana qarşı*, (qərardad), ərizə № 45963/99, 14 dekabr 2004-cü il). Lakin Məhkəmə hesab etmir ki, birinci ərizəçinin həbsi ilə bağlı jurnalistlər tərəfindən özəl televiziya kanalı üçün çəkiliş aparılması məhkəmə araşdırmasının ədalətliliyinə xələl gətirmək məqsədi daşıyan qəzəbli media kampaniyası idi, həmçinin medianı bu məsələyə maraq göstərməyə prokurorun, qubernatorun və ya hər hansı digər dövlət orqanının sövq etdiyini göstərən hər hansı konkret əlamət yoxdur. Məhkəmənin rəyinə görə bu işdəki hadisələrin media tərəfindən işıqlandırılmasını sadəcə olaraq ictimaiyyəti ölkədəki ən iri zavodlardan birinin baş direktorunun həbsi barədə məlumatlandırmanın hüdudlarını aşan işıqlandırma hesab etmək olmaz.

Müvafiq olaraq, Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndinin pozuntusu baş verməyib.

*Hazırladı: Günel Sadıqova*